UOT 94
https://doi.org/10.59849/2710-0820.2024.2.95

**Turan Qasımova**
*AMEA A.A.Bakıxanov adına*
*Tarix və Etnologiya İnstitutunun*
*fəlsəfə doktoru hazırlığı üzrə qiyabi doktorantı*
*gasimova.turan@yandex.com*
*ORCID: 0009-0002-4699-6889*

# AZƏRBAYCAN VƏ AVROPA İTTİFAQI ARASINDAKI ƏLAQƏLƏRİN "ŞƏRQ TƏRƏFDAŞLIĞI" PROQRAMI ÇƏRÇİVƏSİNDƏ İNKİŞAFI

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Avropa İttifaqı, Şərq Tərəfdaşlığı, sammit, bəyannamə*

***Giriş:*** "Şərq Tərəfdaşlığı" siyasəti Avropa Qonşuluq siyasətinin şərq yönündən ölçülməsini, dəyərləndirilməsini təmsil edir. Həmin siyasətin başlıca məqsədi altı Şərqi Avropa tərəfdaş-dövləti (Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna və təşkilatdakı üzvlüyü 2022-ci ildə dayandırılmış Belarus) arasında siyasi assosiasiyasının və iqtisadi inteqrasiyanın möhkəmləndirilməsidir.

Təqdim olunan araşdırma işinin əsas məqsədi Avropa İttifaqı siyasətinin təkamülünün "Şərq Tərəfdaşlığı" çərçivəsində, rəsmi sənədlər, ekspert dəyərləndirmələri, Kütləvi İnformasiya Vasitələrinin məlumatları əsasında Azərbaycan Respublikası ilə bağlı olaraq ideyanın meydana gəlməsi məqamından 2023-cü ilədək həyata keçirilmiş tədbirlərin kompleks şəkildə araşdırılmasıdır.

Mövzunun aktuallığı belə bir məqamla şərtlənir ki, müasir mərhələdə Avropa İttifaqının Azərbaycan Respublikasına münasibətdə, "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində həyata keçirdiyi siyasətinin gerçəkləşdirilməsinin xüsusiyyətləri indiyədək kifayət qədər təhlil olunmamışdır.

***Avropa İttifaqının Azərbaycan Respublikası ilə qarşılıqlı münasibətlərinin erkən tarixinə dair:*** Avropa İttifaqı və Azərbaycan Respublikası arasındakı münasibətlərin tarixi 1993-cü ildən başlanır: 1993-cü ildə Azərbaycan Respublikası Avropa İttifaqı ilə münasibətlərdə maraqlı olduğunu bildirdi və müxtəlif sahələrdə əlaqələrini planlaşdırmağa başladı. Avropa İttifaqı və Azərbaycan arasındakı münasibətlərin hüquqi-normativ bazası 1996-cı ilin aprel ayının 22-də Lüksemburqda yaradıldı. Həmin tarixi məqamda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında ikitərəfli sazış imzalandı. Müqavilədə xüsusi qeyd olunurdu ki, "Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması Avropada sülhün və sabitliyin qorunmasına yardım edəcək" [21].

"Tərəfdaşlıq və əməkdaşlıq haqqında sazış"in başlıca məqsədi Avropa strukturları ilə sıx əlaqələrin yaradılmasında Cənubi Qafqaz ölkələrinə yardım göstərilməsidir. 2004-cü ildə üç Cənubi Qafqaz dövləti, o cümlədən Azərbaycan Respublikası Avropa Qonşuluq Siyasətinə daxil oldular. Hal-hazırda Avropa İttifaqının daha bir təşəbbüsü – "Şərq Tərəfdaşlığı" diqqət mərkəzindədir.

"Şərq Tərəfdaşlığı" proqramı 2008-ci ilin may ayında İsveçin və Polşanın xarici içlər nazirləri – Karl Bildt və Rodoslav Sikorski tərəfindən irəli sürülmüşdür. 2008-ci ilin dekabr ayında isə Avropa İttifaqının rəhbərləri həmin proqramı təsdiqlədilər. "Şərq Tərəfdaşlığı" proqramının başlıca vəzifələri bunlardır: Şərqi Avropa və Cənubi Qafqaz dövlətlərinin Avropa İttifaqı ilə yaxınlaşması və əməkdaşlığın dərinləşməsi; həm "Şərq Tərəfdaşlığı" dövlətləri ilə Avropa İttifaqı arasında, həm də "Şərq Tərəfdaşlığı" dövlətləri arasında siyasi assosiasiya və sonrakı iqtisadi inteqrasiya üçün şərtlərin, şəraitin yaradılması. İqtisadi və sosial sahələrdə əməkdaşlıq haqqında açar-müddəalar "Şərq Tərəfdaşlığı" üzrə sammitlər çərçivəsində aparılan iş gedişində işlənib hazırlanmış əsas sənədlərlə təsdiq olunur.

"Şərq Tərəfdaşlığı" siyasi əməkdaşlıq kimi deyil, daha çox sosial-iqtisadi əməkdaşlıq kimi bəyan olunur. "Şərq tərəfdaşlığı" təşkilatının işi, fəaliyyəti "28+6" düsturu əsasında aparılır. "Şərq Tərəfdaşlığı"nın ali orqanı dövlət və hökumət başçılarının iki ildən bir keçirilən görüşləridir (sammitlər). Hər ilin yazında xarici işlər nazirlərinin görüşləri, ildə iki dəfə yüksək vəzifəli şəxslərin dörd tematik platforma üzrə iclasları keçirilir [23].

***Azərbaycan Respublikasının "Şərq tərəfdaşlığı"nın sammitlərində iştirakı və mövqeyi:*** Şərq Tərəfdaşlığının birinci sammiti 2009-cu ilin may ayının 7-də Çexiyanın Praqa şəhərində keçirilmişdir. Sammit iştirakçıları rəsmən yeni birliyi təsis etdilər və təşkilatın əsas sənədini – "Şərq Tərəfdaşlığının Praqa sammitinin Birgə Bəyannaməsini" qəbul etdilər.

Həmin təşkilatın Bəyannaməsində göstərildi ki, yeni təşəbbüsün başlıca məqsədi "Avropa İttifaqı və maraqlı, tərəfdaş-dövlətlər arasında siyasi və iqtisadi inteqrasiyanın sürətləndirilməsi üçün "Şərq Tərəfdaşlığı" ölkələrində sosial-iqtisadi islahatlara dəstək vermək yolu ilə zəruri olan şəraitin yaradılmasıdır". Brüsselin (Belçikanın) təklifi ilə Bəyannaməyə belə bir bənd əlavə olundu ki, "Şərq Tərəfdaşlığı" təşkilatına daxil olan ölkələr öz fəaliyyətində Avropa İttifaqı ilə əməkdaşlığın inkişaf etdirilməsi prinsipinə əməl edəcək, Avropa İttifaqının həmin ölkələrdə keçirdiyi islahatlara dəstək verəcək, əsas Avropa dəyərlərinə əməl edəcək". Bəyannamədə Avropa İttifaqına daxil olan ölkələrdə həyata keçirilən prioritet islahatların və onunla əməkdaşlığın mühüm sahələrinin adları çəkilir: demokratiya, idarəetmə sisteminin təkmilləşdirilməsi və sabitliyin təmin olunması; iqtisadi inteqrasiya və azad ticarət zonalarının yaradılması daxil olmaqla Avropa İttifaqının sahəvi iqtisadi siyasəti ilə konvergensiyası; energetika təhlükəsizliyi; insanlar arasında əlaqələrin inkişaf etdirilməsi (viza rejiminin liberallaşdırılması və qeyri-qanuni miqrasiyaya qarşı mübarizə) [13].

Həmin Bəyannamədə "Şərq Tərəfdaşlığı" çərçivəsində siyasi-hüquqi əsaslara və təşkilati formalara dair heç bir ideya irəli sürülməmişdir. Bu Bəyannamədə yalnız iki konkret təklif ifadə olunmuşdu – "Şərq Tərəfdaşlığı"na daxil olan üzv ölkələrin Vətəndaş Cəmiyyəti Forumunu yaratmaq və tərəfdaş ölkələrdə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün maliyyə təsisatlarını, hər şeydən öncə Avropa İnvestisiya Bankını cəlb etmək [12].

Əlbəttə, həmin Bəyannamədə "Şərq Tərəfdaşlığı" qurumunu yaradan Avropa İttifaqının rəhbər tutduğu bəzi iqtisadi və siyasi maraqlar göstərilmir. Lakin motivlərdən biri - məhz Avropa İttifaqının Şərq sərhəddində sabitlik və təhlükəsizlik qurşağının yaradılması qeyd olunmuşdu.

Həmin sammitdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də iştirak etmişdir. İlham Əliyev bu sammitin əhəmiyyətini nəzərə çatdıraraq qeyd etmişdir ki, "Şərq Tərəfdaşlığı" proqramı Azərbaycan Respublikası və Avropa İttifaqı arasındakı əlaqələrin daha da genişlənməsinə təkan verəcək, bizim ölkə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Dövlət başçısı bu sahədə əməkdaşlığın yüksək səviyyədə olduğunu və Azərbaycan Respublikasının Avropa İttifaqı ilə enerji sahəsində əlaqələrinin daha da genişləndirilməsində maraqlı olduğunu qeyd etmişdir. Prezident İlham Əliyev eyni zamanda tədbir iştirakçılarına Ermənistanın Azərbaycana qarşı təcavüzkar əməllərinin davam etdiyini də bildirmişdir [1; 3, 66].

Azərbaycan Respublikasının rəhbərliyi Avropa İttifaqı ilə münasibətlərində əsas diqqətini energetika bazarına yönəltmişdi. Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlıq məsələsi üzrə 2010-cu ildə başlanmış danışıqlar Azərbaycanın Ümumdünya Ticarət Təşkilatında üzvlüyünün olmaması səbəbindən dayandırıldı. Azərbaycan hökuməti rəsmi sənədlərdə qeyd edirdi ki, onun başlıca məqsədi ölkə əhalisinin həyat səviyyəsinin Avropa göstəricilərinə qədər artırılmasıdır. Azərbaycan rəhbərliyi təhlükəsizlik siyasətinin ardıcıl şəkildə davam etdirilməsi, bölgədə status-kvonun qorunması tərəfdarıdır və tələb edir ki, Cənubi Qafqaz bölgəsində nüvə silahı olmasın, bölgəyə qeyri-leqal surətdə silah, hərbi avadanlıq gətirilməsin, həmçinin Azərbaycan Xəzər dənizinin demilitarizasiyası ideyasını dəstəkləyir. Azərbaycan Respublikasının siyasəti NATO və Avropa İttifaqı strukturlarına inteqrasiyanı nəzərdə tutmur.

2011-ci ilin sentyabr ayının 30-da Polşanın paytaxtı Varşava şəhərində Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" təşkilatının ikinci sammiti

keçirildi. Həmin sammitdə Prezident İlham Əliyev də iştirak etmişdir [4, 10].

Bu sammitdə Avropa maliyyə təsisatları ilə əməkdaşlığın istiqamətləri, prioritet proqramları, əməkdaşlığın siyasi və iqtisadi aspektləri, viza rejimi problemləri və digər məsələlər müzakirə olunmuşdur. Sammitin son mərhələsində Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" sammitinin birgə Bəyannaməsi qəbul edilmişdir.

2011-ci ilin yanvar ayının 13-də Bakı şəhərində Cənub Qaz dəhlizinə dair birgə Bəyannamə imzalandı. Bəyannamənin məqsədi "Cənub dəhlizinin" Azərbaycan qazı ilə təmin olunması idi. Cənub qaz dəhlizi – qaz kəməri sistemidir, həmin sistem modernizasiya olunduqdan sonra Avropa İttifaqını Qafqaz dövlətləri vasitəsi ilə, Rusiya Federasiyasından yan keçməklə Xəzər regionu ilə əlaqələndirməli idi. Qeyd edək ki, həmin qaz kəmərləri sisteminə Cənubi Qafqaz qaz kəməri, Transanadolu və Transadriatik qaz kəmərləri də daxildir. Beləliklə, Cənub qaz dəhlizi Azərbaycan, Türkiyə, Yunanıstan, Albaniya, İtaliyadan da keçir. Həmin sənəddə Azərbaycan Respublikası Cənub qaz dəhlizinin yaradılmasına və inkişafına mühüm töfhə vermiş bir ölkə kimi dəyərləndirilir. Sənədi imzalamış tərəflər qaz ehtiyatlarının ümumi strateji məqsədlər qismində "Şahdəniz - 2" və Azərbaycanın digər qaz yataqlarından Avropa bazarlarına nəqlini nəzərdə tuturdular [9; 5, 31].

"Şərq Tərəfdaşlığı"nın növbəti – üçüncü sammiti 2013-cü ilin noyabr ayının 28-29-da Litvanın paytaxtı Vilnyüs şəhərində keçirildi. Gözlənildiyi kimi, həmin sammit Avropa İttifaqının xarici siyasətində əsil irəliləyiş məqamı olmalı idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sammitin plenar iclasındakı çıxışı sammit iştirakçıları tərəfindən böyük maraqla qarşılandı. Prezident Vilnyüs sammiti çərçivəsində 10-dan artıq görüş keçirdi, İspaniyanın, Böyük Britaniyanın, Latviyanın baş nazirləri, Fransanın prezidenti və digər rəsmi şəxslərlə görüşdü [6, 202].

Avropa İttifaqına daxil olan dövlətlərin və tərəfdaş-dövlətlərin rəhbərləri sammitin geniş yekun Bəyannaməsini qəbul etdilər.

Bu sammitin fəaliyyəti sayəsində Avropa İttifaqı və Azərbaycan Rrespublikası arasında viza rejiminin sadələşdirilməsi haqqında Razılaşma imzalandı. Azərbaycan Respublikası tərəfindən həmin razılaşma sənədini Xarici işlər naziri Elmar Məmmədyarov, Avropa İttifaqı tərəfindən Litvanın Xarici işlər naziri Lihas Linkyaviçus, genişlənmə və Avropa qonşuluq siyasəti məsələləri üzrə komissar Ştefan Fyule imzaladılar.

Azərbaycan Respublikası və Avropa İttifaqı arasında viza rejiminin sadələşdirilməsi haqqında və icazəsiz yaşayan şəxslərin readmissiyası barəsindəki razılaşmalar 2014-cü ilin sentyabr ayının 1-dən etibarən qüvvəyə mindi. Bu, daha çox səyahət edən Azərbaycan Respublikası vətəndaşlarına bir çox Aİ ölkələrinə daha sadə və daha ucuz vizalar əsasında səyahət etmək imkanı verir. Bununla yanaşı, həmin razılaşmaya əsasən təqaüdçülər, tədqiqatçılar, tələbələr, 12 yaşınadək olan uşaqlar viza vergilərindən tam azad olunurdular. Qeyd etmək lazımdır ki, Avropa İttifaqının "Erasmus +" proqramı çərçivəsində 2015-2018 illər ərzində Azərbaycanın 1300-dək tələbəsinə və müəllliminə Avropa İttifaqı ölkələrində təhsil almaq və yaxud dərs keçmək imkanı verildi. Yaşayış yerini dəyişmək sahəsində tərəfdaşlıq haqqında birgə Bəyannamə Azərbaycan Respublikası və Avropa İttifaqı üzvü olan dövlətlər tərəfindən 2013-cü ilin dekabr ayının 5-də Brüssel şəhərində imzalanmışdı. Həmin Bəyannamə Prezident İlham Əliyevin 6 mart 2014-cü il tarixli, 312 saylı Sərəncamı ilə təsdiqləndi. Bu birgə Bəyannamənin əsas məqsədi – insanların Azərbaycan Respublikası və Avropa İttifaqı dövlətləri arasında yerdəyişməsinə yardım etmək, müvafiq beynəlxalq standartlara uyğun olaraq miqrasiya axınlarını daha yaxşı idarə etmək və qeyri-leqal miqrasiyaya qarşı mübarizədə əməkdaşlığı genişləndirmək olmuşdur [19].

2015-ci ilin may ayının 21-22-də Latviyanın paytaxtı Riqa şəhərində "Şərq Tərəfdaşlığı"nın dördüncü sammiti keçirildi. Həmin sammit Avropa İttifaqının 6 iştirakçı ölkəsinin inteqrasiyasının vahid platformasından əməkdaşlığın fərdi proqramlarına keçidi olmasını vəd edirdi. Sammitdə imzalanmış birgə yekun Bəyannaməsində Avropa İttifaqı bütün tərəfdaşların ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə sadiqliyinə tərəfdar olduğunu təsdiq etdi.

Azərbaycan Respublikasının nümayəndəsi həmin sənədə imza atdı, lakin sənədin bəzi müddəalarına qeydlərini də bildirdi. Rəsmi Bakı Avropa İttifaqının Dağlıq Qarabağ münaqişəsinin həllinə yanaşma tərzindən narazı olduğunu və Bəyannamənin Azərbaycan-Avropa əməkdaşlığının ruhuna uyğun gəlmədiyini bildirdi.

2015-ci ilin may ayının 25-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Bəyannamənin mətni ilə bağlı olan müraciətini bəyan etdi və həmin müraciət Avropa İttifaqına göndərildi. Bu müraciətdə deyilirdi ki, bir neçə tərəfdaş-ölkəyə aid olan münaqişələrə münasibətdə kompromis mətninin işlənib hazırlanmasında Bəyannamə layihəsinin müəllifləri "ikili standartlar"lara yol vermişlər. Azərbaycan Respublikası elan etdi ki, ölkəmiz Avropa İttifaqından Azərbaycan və Ermənistan arasında olan Dağlıq Qarabağ münaqişəsi üzrə aydın, birmənalı və əsaslandırılmış mövqe gözləyir. Həmçinin Azərbaycan Respublikası bəyan etdi ki, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunun əsasında BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə durur. Həmin qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən qeyd-şərtsiz çıxarılması tələb olunurdu [14].

2015-ci ilin sammitindən sonra Avropa İttifaqı və Azərbaycan arasındakı münasibətlərlərdə keyfiyyət baxımından və prinsip cəhətdən yeni mərhələ başlandı. Avropa İttifaqı ilə münasibətlərdə siyasi dialoqa yeni təkan verən və qarşılıqlı fayda gətirən əməkdaşlığa aparan məqamlar qeydə alındı. Azərbaycan Respublikası qarşı tərəfə strateji əməkdaşlıq haqqında yeni, hərtərəfli razılaşma təklif etdi. Rəsmi Avropa İttifaqı ilə assosiativ üzvlük formatı əvəzinə həmin razılaşma daha faydalı idi. Azərbaycanın rəhbərliyi bu məsələ üzrə açıq və konkret mövqeyini elan etdi və bu mövqe rəsmi Brüssel tərəfindən qəbul olundu. Avropa İttifaqı liderlərinin ölkəmizə səfərləri təşkil edildi və Avropa İttifaqı tərəfdaşlıq və əməkdaşlıq haqqında Sazişi əvəz edən yeni, ikitərəfli Saziş üzrə danışıqlara mandat verdi.

Tərəflərin dəyərləndirmələrinə görə, yeni prioritetlər haqqında danışıqlar 2017-ci ilin fevral ayının 7-də Prezident İlham Əliyevin Brüsselə uğurlu səfərindən dərhal sonra başlandı.

Həmin ilin oktyabr ayının 4-də Prezident xüsusi nümayəndə heyətini qəbul etdi. Nümayəndə heyətinə Avropa İttifaqı Şurasının Siyasət və Təhlükəsizlik üzrə Komitəsinin sədri Valter Stivens rəhbərlik edirdi. Bu heyətin tərkibinə Avropa İttifaqının 28 ölkəsinin Brüsseldə akkreditə olunmuş səfirləri daxil idilər [7, 185].

Nəticədə daha bərabərhüquqlu ruhda əməkdaşlıq üçün əsas qoyuldu. Nüfuzlu nümayəndə heyətinin, missiyanın məqsədi "Şərq Tərəfdaşlığı" təşkilatının növbəti – beşinci sammitinə hazırlıq olmuşdur [18].

2017-ci ilin noyabr ayının 4-də Belçikanın paytaxtı Brüsseldə "Şərq Tərəfdaşlığı"nın beşinci sammiti keçirildi. Bu sammitin iştirakçıları təşkilatın Riqa sammitindən sonrakı 2 il ərzində "Şərq Tərəfdaşlığı" çərçivəsində əməkdaşlığın nəticələrini müzakirə etdilər. Sammitin iştirakçıları Birgə Bəyannamə qəbul etdilər, bu Bəyannamədə 2020-ci ilədək əməkdaşlığın vəzifələrini və proqramını qeydə aldılar, sammit ərzində bir sıra sazişlər imzaladılar.

Brüssel sammitində əlavə olaraq daha bir sənəd – "2020-ci ilədək 20 vəzifə" qəbul olundu. Həmin sənədin əvvəlindəki "20 vəzifə" "Şərq Tərəfdaşlığı" üzv ölkələri vətəndaşları üçün nəzərəçarpan nəticələr əldə olunmasına istiqamətlənmiş "işçi alət" kimi düşünülmüşdü. Bu vəzifələr içərisində beş bölməni ayırmaq mümkündür: kəsişən məqsədlər; iqtisadi inkişaf və bazar imkanları; təsisatların möhkəmləndirilməsi və lazımi idarə; qarşılıqlı əlaqə, enerji səmərəliliyi, ətraf mühit və iqlim dəyişiklikləri; mobillik və insanlar arasında əlaqələr.

"Şərq Tərəfdaşlığı"nın 2017-ci ilin noyabrında Brüsseldə keçirilmiş beşinci sammitində qəbul edilmiş birgə Bəyannaməsində Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi yenidən dəstəkləndi. Birgə Bəyannamənin bəndlərindən birində qeyd olunmuşdur ki, "Şərq Tərəfdaşlığı" ölkələrinin ərazilərində baş verən bütün münaqişələr beynəlxalq hüquq normaları və prinsipləri əsasında həll olunmalıdır. Ermənistan tərəfinin bu sənədə onun işğalçı maraqlarına cavab verən bəndi əlavə etmək cəhdləri uğursuzluqla nəticələnmişdir [15].

Prezident İlham Əliyevin Brüssel sammitindəki bütün nitqi bu məsələyə həsr olunmuşdu: "...Azərbaycan Respublikasının ərazi bütöv-

lüyü hər bir dövlətin ərazi bütövlüyü kimi mühümdür və bərpa olunmalıdır” [11].

Eyni zamanda Bəyannamədə Azərbaycan Respublikasının fəal iştirakı ilə həyata keçirilən nəqliyyat və energetika layihələrində xüsusi dəstəyi qeyd olunmuş, bu məqam da nəzərə çatdırılmışdır ki, İlham Əliyevin təşəbbüsü ilə yaradılan “Cənub qaz dəhlizi” layihəsi Avropa İttifaqı üçün müstəsna dərəcədə mühüm strateji əhəmiyyətə malikdir. Həmin sənəddə Avropa İttifaqının “Şərq Tərəfdaşlığı”na daxil olan ölkələrlə, habelə Azərbaycan Respublikası ilə gerçəkləşdirilən ikitərəfli və çoxtərəfli layihələrə xüsusi diqqət yetirilmişdir.

Avropa İttifaqı Azərbaycan Respublikasının iştirakı ilə gerçəkləşdirilən nəqliyyat layihələrinin əhəmiyyətini yaxşı anlayır. Brüssel sammiti çərçivəsində Azərbaycan və Aİ arasında Transavropa nəqliyyat şəbəkəsi üzrə istiqamətləndirici xəritənin qəbulu məhz bununla bağlıdır [22].

2017-ci ilin Brüssel sammitindən sonra Azərbaycan və Avropa İttifaqı arasındakı münasibətlərdə mühüm hadisə baş verdi. 2018-ci ilin fevral ayının 9-da Brüsseldə Avropa İttifaqı – Azərbaycan Respublikası Əməkdaşlıq Şurasının iclası keçirildi. Azərbaycan özünün qəti mövqeyini iqtisadi, siyasi və geosiyasi müstəqilliyini saxlamaqla Avropa İttifaqının strateji tərəfdaşı olmağa hazır olduğunu nümayiş etdirdi.

Azərbaycan Respublikası və Avropa İttifaqı Əməkdaşlığı Şurasının iclasında Cənubi Qafqaz regionunda ümumi vəziyyəti, bir sıra aktual məsələlərdə ikitərəfli əməkdaşlıq istiqamətlərinin inkişaf səviyyəsi, Cənub qaz dəhlizinin çəkilməsində iştirak edəcək dövlətlərin nazirlərinin Bakı şəhərində keçiriləcək konfransın gündəliyi müzakirə olundu. Həmin müzakirədə Azərbaycan Respublikasının xarici işlər naziri E.Məmmədyarov və Avropa İttifaqının diplomatik xidmətinin rəhbəri F.Mogerini yuxarıda göstərilmiş məsələləri ətraflı müzakirə etdilər. İclasdan bir neçə gün əvvəl Avropa investisiya bankı yuxarıda qeyd olunan qaz dəhlizini inşa edəcək konsorsiuma 1.5 milyard avro kredit təqdim etmək qərarını qəbul etdi [22].

İclasın iştirakçıları strateji tərəfdaşlıq haqqında yeni, 2017-ci ilin dekabr ayının son ongünlüyündə keçirilmiş danışıqların növbəti raundunun nəticələrini qəbul etdilər. Bu sənəd siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat və humanitar sahələrdə əməkdaşlığın perspektivlərini müəyyən edir [17, 30]. Danışıqların diqqət mərkəzində ümumi praqmatik dəyər durmuşdu: Gürcüstandan və Türkiyədən keçən qaz kəmərinin çəkilməsinin başa çatdırılması. 2018-ci ilin iyun ayının 12-də TANAP qaz kəmərinin birinci hissəsinin təntənəli açılışı mərasimi keçirildi [8, 272].

2018-ci ilin iyul ayında Avropa İttifaqının Brüsseldəki mənzil-qərargahında Prezident İlham Əliyevin və Avropa İttifaqı Şurasının sədri Donald Tuskun iştirakı ilə Azərbaycan Respublikası və Avropa İttifaqı arasında “Tərəfdaşlığın prioritetləri” adlı sənədin paraflanması mərasimi keçirildi. [9, 89]. Həmin sənəd Azərbaycan Respublikası – Avropa İttifaqı Əməkdaşlığı Şurasının məsləhəti ilə 2018-ci ilin sentyabr ayının 28-də qəbul olundu və qüvvəyə mindi. Tərəfdaşlığın prioritetləri aşağıda sadalanan istiqamətləri əhatə edirdi: institusional möhkəmləndirmə və səmərəli idarə; iqtisadi inkişaf və bazar imkanları; enerji səmərəliliyi, ətraf mühit və iqlim dəyişiklikləri ilə mübarizə üzrə tədbirlər; mobillik və insanlar arasında əlaqələr.

2019-cu ilin may ayının 14-15-də Brüssel şəhərində “Şərq tərəfdaşlığı” təşkilatının yubiley sammiti keçirildi. Sıx əməkdaşlığın 10 ilindən sonra - 2019-cu ilin may ayında Avropa Komissiyası layihənin gələcək siyasi məqsədlərini dəqiqləşdirmək üçün “Şərq tərəfdaşlığı”nın perspektivləri haqqında strukturlaşdırılmış məsləhətləşmələrə başladı.

2019-cu ilin iyun-oktyabr ayları ərzində bu layihə çərçivəsində geniş və nümayəndəli məsləhətləşmələr keçirildi və bunun nəticələrinə əsasən 200-dən artıq yazılı material əldə olundu [24]. Həmin materiallar iştirakçıların geniş konsensusunu nümayiş etdirərək sübut etdi ki, “Şərq tərəfdaşlığı”nın siyasi əsası etibarlıdır və insanlar üçün nəzərəçarpacaq nəticələr verməkdə davam edəcəkdir. Yerli səviyyədə əhali ilə iş Avropa İttifaqına fəaliyyətini daha nəzərəçarpacaq və səmərəli etmək üçün “açar” rolunu oynayan vasitə kimi etiraf edildi. Bu məqamda qeyd etmək vacibdir ki, 2019-cu il yeni məqsədlərin və vəzifələrin qarşıya qoyulması, nəticələrin əldə olunması, dəyərləndirilməsi, məsləhətləşmələr ili olmuşdur.

2020-ci ilin əvvəli yalnız "Şərq tərəfdaşlığı" təşkilatının deyil, eyni zamanda bütün dünya ictimaiyyətinin fəaliyyətini mürəkkəbləşdirdi. "COVİD-19" pandemiyası nəticəsində yaranmış qlobal böhran bu təşkilatın tərəfdaş dövlətlərin fəaliyyət xarakterini kardinal tərzdə dəyişdirdi. 2020-ci ilin iyun ayının 18-də dünyada yaranmış epidemoloji şəraitlə bağlı olaraq nəzərdən keçirdiyimiz təşkilatın videokonfrans formatında sammiti keçirildi. Həmin sammitin yeni gündəliyinin formalaşdırılması Avropa İttifaqı üzvləri olan ölkələrin inkluziv dialoqu çərçivəsində baş tutdu. Həmin sammitin gedişində tərəflərin gələcək strateji əməkdaşlığının məsələləri nəzərdən keçirilirdi. Avropa İttifaqının liderləri gələcək əməkdaşlığın istiqamətlərini müəyyənləşdirirdilər. Əvvəlki illərdə olduğu kimi, iqtisadi əməkdaşlıq bu təşkilatın prioritet istiqaməti kimi müəyyənləşdirildi.

Təşkilatın liderləri "COVİD-19" böhranının doğurduğu ağır bir dövrdə dünya xalqları arasında həmrəyliyin zəruri olduğunu qeyd etdilər. Onlar fəal şəkildə "Şərq tərəfdaşlığı" təşkilatı hüdudlarında koronavirusun meydana çıxmasının nəticələrinin dəf olunması üçün Avropa İttifaqının mühüm dəstək verilməsi hərəkatına qoşuldular. "Şərq tərəfdaşlığı"nın üzv ölkələri təşkilatın ideyalarına sadiq olduqlarını həm sözdə, həm də fəaliyyətdə sübur etdilər. Təşkilat üzvü olan dövlətlər əməkdaşlığın ticarət, viza rejimi, səyahətlər, viza məsələlərinin sadələşdirilməsinə dair danışıqlar, razılaşmalar sahəsində mühüm məsələləri müsbət surətdə həll etməyə çalışdılar.

Bəhs olunanlardan başqa rəsmi görüşün iştirakçıları 2021-ci ildə Brüsseldə keçiriləcək əyani sammitə hazırlıq məsələlərini də müzakirə etdilər. Onlar qarşıdakı sammitdə "Şərq tərəfdaşlığı"nın siyasətinin "beş prioritetinin" Birgə Bəyannamə ilə təsdiq olunmasını planlaşdırdılar.

Yuxarıda xatırlatdığımız sammit videokonfrans formatında keçirildiyinə görə tədbirin nəticələri ilə bağlı olan hər hansı bir sənədin qəbul olunması nəzərdə tutulmamışdı [16].

2021-ci ilin dekabr ayının 15-də Avropa İttifaqının, İttifaqa daxil olan ölkələrin, "Şərq tərəfdaşlığı"nın nümayəndələri Brüssel şəhərində altıncı sammiti keçirdilər.

Həmin sammit hər şeydən öncə "Şərq Tərəfdaşığı"nın üzvü olan ölkələrin "5 əsas sahə üzrə" dəstəyinə həsr olunmuşdu (iqtisadiyyat, idarə, ətraf mühit, rəqəmsallaşdırma və cəmiyyətin möhkəmləndirilməsi). İnkişaf proqramının əvvəlki nailiyyətlərinə əsaslanan bu prioritet istiqamətlər yeni çağırışları və imkanları ("yaşıl keçid" və rəqəmsallaşdırma), habelə pandemiyadan sonrakı bərpanın zəruriliyini nəzərə alırdı. Avropa İttifaqına daxil olan dövlətlər səhiyyə sahəsindəki böhranı aradan qaldırmaq, onların uzunmüddətli sosial-iqtisadi bərpasına dəstək vermək üçün tərəfdaş ölkələrə 2.5 milyon avro vəsait ayırdı.

Həmin tədbirin nəticələrinə əsasən birgə Bəyannamə qəbul olundu. Bu bəyannamədə Azərbaycan Respublikası üçün mühüm olan bir sıra məsələlər – bütün tərəfdaş ölkələrin, o cümlədən Azərbaycanın ərazi bütövlüyünün beynəlxalq aləm tərəfindən qəbul olunmuş sərhədlərinin bərpa olunması, Azərbaycan və Aİ arasında ikitərəfli yeni layihə üzrə davam edən danışıqlar, Aİ ölkələrində qaz ixracının marşrutları və diversifikasiyanın mənbələri əsasında Cənub Qaz dəhlizi üzrə layihənin başa çatdırılması öz əksini tapdı [10, 172].

Azərbaycan Respublikası həmişə "Şərq Tərəfdaşlığı" proqramının cəbhələşmə kontekstində qurulmasına qarşı çıxmışdır. Bu prinsip birgə Bəyannamənin özündə də əksini tapmışdır. Həmin Bəyannamədə qeyd olunur ki, "Şərq Tərəfdaşlığı" konstruktiv əməkdaşlığa əsaslanır və heç kimə qarşı yönəlməmişdir. Azərbaycan Resublikasının mövqeyi bundan ibarətdir ki, Avropa İttifaqı dövlətləri və tərəfdaş-ölkələrlə öz münasibətlərinə çətinliklər, neqativ çağırışlar gətirməməlidirlər. Digər tərəfdən, "Şərq Tərəfdaşlığı" təşkilatının proqramını qəbul etmiş dövlətlər yüksək səviyyəli münasibətlərə xələl gətirən siyasət yeritməməlidir.

Birgə Bəyannamədə Belarusla bağlı ifadə olunan fikirlərlə Azərbaycanın xarici siyasətinin prinsipləri arasında uyğunsuzluq olduğuna görə, Azərbaycan birgə Bəyannaməni öz qeyd-şərti ilə qəbul etdi. Azərbaycan Respublikası Bəynannamənin 11-ci bəndində (rəsmi Minskin hərəkətlərini pisləyən bənd) Belarusla bağlı olan mövqeyi dəstəkləmədiyini bəyan etdi [2].

Azərbaycan Respublikasının daha bir qeyd-şərti birgə Bəyannamədəki "münaqişə ilə

bağlı olan ərazilərə" aiddir. Sənəddə qeyd olunur ki, "Avropa İttifaqı paytaxtlardan kənarda, münaqişələrdən zərər çəkmiş ərazilərdə fəaliyyət göstərən təşkilatları dəstəkləyəcək". Azərbaycan özünün qeyd-şərtində həmin ərazilərdə fəaliyyətinin gerçəkləşdirilməsinin zəruriliyini göstərmiş, bu ərazini işğalda saxlayan dövlətin təcavüzkar olduğunu nəzərə çatdırmışdır. Bu mövqe bilavasitə beynəlxalq hüquqa və suveren dövlətlərin hüquqlarına əsaslanır [25].

***Nəticə.*** Avropa İttifaqı üçün "Şərq Tərəfdaşlığı" təşəbbüsü – regionda öz iştirakını siyasi dəstək, əməkdaşlığın, birgə layihələrin və digər tədbirlərin vasitəsi ilə inkişaf etdirilmək və möhkəmləndirilmək imkanıdır.

Yeni geosiyasi gerçəkliklər formalaşdıqca nadir imkanlar və "Şərq Tərəfdaşlığı"nın üzvü olan altı dövlətin (Azərbaycanın, Ermənistanın, Belarusun, Gürcüstanın, Moldovanın və Ukraynanın) müxtəlif statusları təşkilatın hər bir üzv ölkəsindən fərdi və detallaşdırılmış strategiya tələb edir. Bu fonda Azərbaycan Respublikası səylə aktual milli gündəliyi işləyib hazırlayır, dövlətimizin həmin sahədəki fəaliyyəti yaxın keçmişdə azad olunmuş ərazilərin reinteqrasiyası üzrə hərtərəfli planların gerçəkləşdirilməsi ilə müşaiyət olunur.

Azərbaycan Respublikasının Avropanın energetika təhlükəsizliyinə töhfəsi, əhəmiyyətli "Cənub qaz dəhlizi" layihəsi gerçəkləşdirilmiş və artıq istifadəyə verilmiş, bu layihənin Avropada genişlənməsi üçün imkanlar yaranmış, habelə Azərbaycan Respublikası və Avropa İttifaqı arasındakı ikitərəfli münasibətlərin, əlaqələrin də genişləndirilməsi üçün hüquqi əsasını təşkil edəcəkdir.

Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlıqla bağlı olan, bir çox məsələlər haqqında yeni sənədin hazırlanması həmişə aparıcı istiqamətlər sırasında olmuşdur. Bəzi hallarda Avropa İttifaqının müxtəlif səviyyəli məclislərində ("Şərq Tərəfdaşlığı" sammitlərində və s.) Azərbaycan Respublikası ilə bağlı olan məqamlar səsləndirilmiş, təklif olunmuş tezislər, müddəalar irəli sürülmüş, mövqelər nümayiş etdirilmişdir. Lakin qüvvələr balansına əməl edən rəsmi Bakının təmkinliliyi və fəallığı obyektiv və subyektiv maneələrin aradan qaldırılması üçün əlverişli zəmin, şərait yaratmışdır. Bu, Azərbaycan Respublikası rəhbərliyinin müvazinətli, obyektiv gerçəklikləri nəzərdə tutan xarici siyasətinin labüd uğurlarındandır.

**Ədəbiyyat siyahısı**


1. Avropa İttifaqının Şərq Tərəfdaşlığı sammiti baş tutub. Prezident İlham Əliyev sammitdə iştirak edib https://azertag.az/ru/xeber/sostoyalsya_sammit_evropeiskogo_soyuza_vostochnoe_partnerstvo__v_sammite_prinyal_uchastie_prezident_azerbaidzhana_ilxam_aliev-704506. Müraciət tarixi – 03.06.2024
2. Azərbaycan Respublikasının qeyd şərti https://www.consilium.europa.eu/media/53528/20211512-national-declaration-of-azerbaijan.pdf – Müraciət tarixi – 06.06.2024
3. İlham Əliyev. İnkişaf - məqsədimizdir. Kitab 36, aprel 2009 - iyul 2009, Azərnəşr, Bakı – 2016, 400 s.
4. İlham Əliyev. İnkişaf- məqsədimizdir. Kitab 48, sentyabr 2011- noyabr 2011, Azərnəşr, Bakı – 2017, 401 s.
5. İlham Əliyev. İnkişaf - məqsədimizdir. Kitab 44, dekabr 2010 - mart 2011, Azərnəşr, Bakı – 2017, 399 s.
6. İlham Əliyev. İnkişaf - məqsədimizdir. Kitab 60, oktyabr 2013 - dekabr 2013, Azərnəşr, Bakı – 2018, 401 s.
7. İlham Əliyev. İnkişaf - məqsədimizdir. Kitab 83, oktyabr 2017 - noyabr 2017, Azərnəşr, Bakı – 2019, 392 s.
8. İlham Əliyev. İnkişaf - məqsədimizdir. Kitab 87, may 2018 - iyun 2018, Azərnəşr, Bakı – 2019, 392 s.
9. İlham Əliyev. İnkişaf - məqsədimizdir. Kitab 88, iyun 2018 - avqust 2018, Azərnəşr, Bakı – 2019, 392 s.
10. İlham Əliyev. İnkişaf - məqsədimizdir. Kitab 116, noyabr 2021 - yanvar 2022, Azərnəşr, Bakı – 2022, 400 s.
11. İlham Əliyev Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Sammitində iştirak edib https://president.az/ru/articles/view/25962. – Müraciət tarixi – 03.06.2024
12. Praqada Avropa İttifaqının Şərq Tərəfdaşlığı sammiti başa çatıb https://korrespondent.net/world/829648-v-

prage-zavershilsya-sammit-es-vostochnoe-partnerstvo. Müraciət tarixi – 01.06.2024
13. “Şərq Tərəfdaşlığı”nın Praqa sammitinin Bəyannaməsi. URL: *http://n-europe.eu/glossary/term/3434*. Müraciət tarixi – 1.06.2024
14. Şərq Tərəfdaşlığı Sammiti. Azərbaycan və Avropa üçün praqmatik gələcək. https://1news.az/news/20150526114818041-Sammit-Vostochnogo-partnerstva-i-pragmatichnoe-budushcee-dlya-Azerbaidzhana-i-Evropy. Müraciət tarixi – 03.06.2024
15. Şərq Tərəfdaşlığı Sammitinin Birgə Bəyannaməsi. Brüssel, 24 noyabr 2017-ci il. https://www.eeas.europa.eu/node/36181_fr – Müraciət tarixi – 03.06.2024
16. Şərq Tərəfdaşlığı Sammiti: ilk dəfə videokonfrans formatında. https://1news.az/news/20200618121316199-Sammit-Vostochnogo-partnerstva-vpervye-v-formate-videokonferentsii – Müraciət tarixi – 06.06.2024
17. Борко Ю.А., Восточное партнерство: проект, реальность, будущее. Монография. Доклады Института Европы, Москва: 2018 г., 71 с.
18. Намик Маилов. Новые реалии – новые приоритеты. О чем говорят итоги брюссельского саммита "Восточного партнерства"? Region plus. - 2017. - № 22 (351). - С.4-9. https://www.elibrary.az/docs/JURNAL/jrn2017_818.htm – Müraciət tarixi – 03.06.2024
19. Новые реалии отношений с ЕС и перспективы сотрудничества - Один из главных приоритетов внешней политики Азербайджана https://stm.az/ru/news/776/novye-realii-otnosheniy-s-es-i-perspektivy-sotrudnichestva-odin-iz-glavnykh-prioritetov-vneshney-politiki-azerbaydzhana – Müraciət tarixi – 03.06.2024
20. Подписана декларация о поставках газа из Азербайджана в Европу - məqalə. А.Рашидоглу. Зеркало. – 2011. – 15 января. – с. 1,4. http://www.anl.az/down/meqale/zerkalo/2011/yanvar/150772.htm - Müraciət tarixi – 03.06.2024
21. Соглашение о партнёрстве и сотрудничестве между ЕС и Азербайджаном 1996 г. https://eulaw.edu.ru/spisok-dokumentov-po-pravu-evropejskogo-soyuza/soglashenie-o-partnerstve-o-sotrudnichestve-mezhdu-es-i-azerbajdzhanom-1996-g/. Müraciət tarixi – 01.06.2024
22. Энергетика и транспорт – главные темы переговоров ЕС — Азербайджан https://regnum.ru/news/2378822.htm Müraciət tarixi – 03.06.2024
23. Eastern Partnership: EU relations with Region // European External Action Service [site]. – 2016. – Mode of access: https://eeas.europa.eu/headquarters/headquarters-homepage/30602. Müraciət tarixi – 01.06.2024
24. Eastern Partnership. Eastern Partnership structured consultation – post 2020 // European Neighborhood Policy And Enlargement Negotiations: official website. URL: https://ec.europa.eu/neighbourhoodenlargement/neighbourhood/eastern-partnership_en – Müraciət tarixi – 04.06.2024
25. Joint Declaration of the Eastern Partnership Summit ‘Recovery, Resilience and Reform’ Brussels, 15 December 2021 https://www.consilium.europa.eu/media/53527/20211215-eap-joint-declaration-en.pdf

## Резюме

**Туран Гасымова**

**Развитие отношений между Азербайджаном и ЕС в рамках программы "Восточное партнерство"**

В данной статье проводится комплексное исследование эволюции политики Европейского союза, осуществляемой в рамках «Восточного партнёрства» относительно Азербайджана на основе официальных документов, экспертных оценок и данных СМИ.

Сдержанная и активная позиция руководства Азербайджанской Республики создала благоприятную почву для устранения возможных объективных и субъективных препятствий на пути развития взаимоотношений между Азербайджаном и Европейским Союзом.

***Ключевые слова:*** *Азербайджанская Республика, Европейский союз, «Восточное партнерство», саммит, декларация*


## Summary

**Turan Gasimova**

**Development of relations between Azerbaijan and the EU within the framework of the Eastern Partnership program**

This article provides a comprehensive study of the evolution of the European Union policy implemented within the framework of the Eastern Partnership regarding Azerbaijan on the basis of official documents, expert assessments and media data.

The restrained and active position of the leadership of the Republic of Azerbaijan has created favorable conditions for eliminating possible objective and subjective obstacles to the development of relations between Azerbaijan and the European Union.

***Keywords*****:** *Republic of Azerbaijan, European Union, Eastern Partnership, summit, declaration*